Jl. Mas Putih Blok D No 29
Permata Hijau Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@u.net.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

Press-reliz

2007-ci ilin dekabr ayının 19-da Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat Katibi Ermənistan Respublikasının Xarici İşlər Nazirinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı bəyanatına şərh vermişdir. Mətbuat Katibinin şərhində beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq məqsədilə, sülh danışıqlarının Ermənistan dövləti tərəfindən təhrif olunması önə çəkilmişdir. Qeyd olunmuşdur ki, ATƏT-in Madriddə Nazirlər səviyyəsində görüşündən sonra, Ermənistan hökuməti rəsmiləri yerli və beynəlxalq ictimaiyyəti danışıqların mahiyyəti ilə bağlı çaşdırmağa cəhd edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə sülh danışıqları haqda yanlış təsəvvür yaratmaq məqsədilə fəal şəkildə təbliğat aparmağa başlamışlar. XİN rəsmisinin şərhində bildirilmişdir ki, danışıqlar Azərbaycanın bütün işğal olunmuş əraziləri üzərində öz ərazi bütövlüyünün və suverenliyinin tam bərpası və Ermənistan dövləti tərəfindən etnik təmizlənməyə məruz qalmış köçkün əhalinin öz torpaqlarına, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qayıtmasını aydın əks etdirən mövqe üzərində qurulmuşdur. Daha sonra bildirilmişdir ki, Azərbaycan münaqişənin sülh yolu ilə həlli üçün hər zaman xoş niyyətini və diplomatik yolun tükənmədiyini nümayiş etdirmişdir. Şərhdə həmçinin BMT Əsasnaməsinin 51-ci maddəsinin silahlı təcavüz zamanı özünümüdafiəyə tam haqq verməsi hüququ önə çəkilsə də, təcavüzkar dövlət olan Ermənistanın təcavüzün qurbanı Azərbaycanla müqayisədə hərbi xərclərinin faizinin daha yüksək olması, Ermənistanın Dağlıq Qarabağdakı separatçıları tam hərbiləşdirməsi xüsusilə vurğulanmışdır. Şərhin sonunda dövlət və beynəlxalq təşkilatlar səviyyəsində qəbul olunmuş qətnamələr, qərarlar və bəyanatlar vasitəsilə Azərbaycanın ərazi bütövlüyünü qeyd-şərtsiz tanıyan beynəlxalq

ictimaiyyətin mövqeyinin ölkəmiz tərəfindən yüksək dəyərləndirilməsi öz əksini tapmışdır.

8 yanvar 2008